# HƏYAT LÖVHƏLƏRİ NƏSRİN GÜZGÜSÜNDƏ



*(Əvvəli ötən saylarımızda)*

Tanrı molla Niyaza təzədən cənnətə düşmək üçün yeni şans verir. Onu işıqlı dünyaya qaytarmaq və sınaqdan keçirmək istəyir. Molla Niyaz işıqlı dünyaya qayıdır, burada özünü necə aparacaq, köhnə vərdişlərindən əl çəkəcəkmi? Müəllif ustalıqla molla Niyazı təzə psixoloji sınaqlara məruz qoyur. Məlum olur ki, o yenə də tamahkarlığından, pulpərəstliyindən, hətta, qarınqululuğundan belə əl çəkməyib. İstənilən qədər yalan da deyə bilər. Uzaq kənddəki arvadının yanına gedəndə, hiyləgərliklə yanaşmaları göstərir ki, o, heç vaxt səmimi ola bilməyəcək. Axır ki, vaxt tamam olur. Və o təzədən əzrayılın bacısı oğlunun yanına düşüb Tanrının hüzuruna qayıdır. Onsuz da hər şey Tanrıya agah idi. Daha burada molla Niyazın hiylə niqabı kara gəlmir. Və o, birbaşa cəhənnəmə göndərilir.

Müəllif nə demək istəyir? Birincisi, həyat gözəllikləri ilə müqayisədə cənnətin sxematik təbiəti müqayisə olunmaz dərəcədə fərqlidir. Yəni həyat daha gözəldir. Əsil cənnəti insanlar həyatın özündə, öz ləyaqətləri, səmimiyyətləri ilə yaşaya bilərlər. Bunun üçün gərək hər bir kəs molla Niyazlıqdan çıxsın. Tanrının birmənalı təqdir edəcəyi insan olsun. İnsanlar arasında hiyləgərliklə, yalanla yox, səmimiyyətləri ilə hörmət qazansın.

Görünür, müəllif cəmiyyətdə baş verən kataklizmlərdən sonra, cəmiyyət həyatının böhranlı vəziyyətindən istifadə edərək ayaq açan fanatizmi də tənqid hədəfinə çevirmək istəyib. Yumorlu təsvirləri ilə insanların mənəvi mühitini işğal edən və insana yaraşmayan əməlləri də, dini pərdə olaraq qəbul edib insanların inancından suiistifadə yolu ilə yararlanma hallarını da ifşa hədəfinə çevirir. Mənə elə gəldi ki, molla Niyazı mən də tanıyıram. Müxtəlif yollarla insanlardan nəzir-niyaz yığanları (görünür, müəllif Niyaz adını mollaya təsadüfi verməyib) hansımız tanımırıq?

"Otel quşu"nun etirafı"nı insan hisslərinə təsir etmək baxımından müəllifin psixoloji hekayələri sırasına aid etmək olar.

İsaxanın hekayələrində birinci şəxs əsasən yardımçı rolda işrirak edir; əsas qəhrəmanın həyatına müdaxilə etmədən hadisələri çözmək, xarakterlərin açılmasını təmin etmək baxımından bu hekayənin də əvvəlində birinci şəxs nisbətən fəaldır. Sonra bir növ hadisələr öz axarına düşür və oxucu əvvəlcə mənən saf, sağlam bir ailənin faciəyə aparan tale yolu ilə tanış olur. Viktor elm adamıdır. Çünki birinci şəxs onunla hansısa bir elmi konfransda tanış olub. Sonra bu tanışlıq dostluğa çevrilir. Viktorun ziyalılığına, təmiz sevgisinə rəğmən onun ailə xoşbəxtliyinə oxucu elə bəri başdan inanır.

İsaxan hekayələrində ədəbi qəhrəmanlarının hisslərini və həyəcanlarını psixoloji dəqiqliklə vermək üçün onları müəyyən situasiyalarda olduğu kimi təsvir edir. Bir növ oxucu əsərin qəhrəmanını öz nitqləri ilə tanıya bilir. Onların hansı istək və arzularla yaşadığına vaqif olur. Viktorun sevgilisi İrinanın monoloqu varlığında dum-duru bir gənc qadın taleyini görmək baxımından çox maraqlıdır: "Dünya çox qəribə yerdir. Uşaqlıqdan bir yerdə olduğun, hər xasiyyətinə bələd olduğun, sonradan da səni dəlicəsinə sevən birinə, heç uf demədən, yox deyirsən, amma ilk dəfə gördüyün, heç əməlli-başlı tanımadığın, üstəlik xüsusi zahiri görkəmi ilə də seçilməyən, birinin (o, Viktora baxıb gülümsündü) yanına düşüb Orenburqdan Moskvaya gəlirsən, ona qulluq etməyi özünə borc bilirsən, onun üçün gülürsən, onun üçün ağlayırsan, bir sözlə, onun üçün yaşayırsan. Qəribə deyilmi? Ya bəlkə o, heç Orenburqa gəlməsəydi? Sən ona rast gəlməsəydin onda nə olardı, nə baş verərdi? Yox, yox, görünür, taleyin qədəri beləymiş - o, mütləq Orenburqa gəlməliydi, mən də mütləq onu görməliydim. Viktor, mən səni sevirəm. Bax, bakılı dostumuzun yanında söz verirəm, məni səndən yalnız ölüm ayıra bilər". Necə inanmayasan bu səmimi duyğularla ifadə olunmuş sözlərə? Necə qibtə etməyəsən gənc qadının öz ərinə bu qədər dərəcədə hissiyatla bağlanmağına? Oxucuya elə gəlir ki, həyatın hər hansı bir gərdişi bu gənc qadının sevgisini sarsıda bilməz. Nə qədər mənəvi tufanlar baş versə də, İrinanın həmin tufanlardan alnıaçıq çıxacağına inanmamaq mümkünsüzdür. Bu sözlərin, hissiyatla ifadə olunmuş sevginin cavabını Viktor da demək olar ki, həmin dalğada bəyan edir: "Viktor ayağa qalxıb ona yaxınlaşdı: "Bağışla, mənim cənnət quşum, amma həyatımda ilk dəfə səninlə razılaşmayacam. Bizi ölüm də ayıra bilməz, çünki mən sənsiz yaşaya bilmərəm, yəqin ki, sən də mənsiz. Ölsək də bir yerdə ölək. Bu talenin bizə ən yaxşı hədiyyəsi olar". Hə necədir? Bir-birinə yaraşırmı? Bir-birini tamamlayırmı? Yenə də təkrar eləməyə dəyər. Qibtə olunası sevgi, örnək tutulası sevgi. Sanki müəllif demək istəyir ki, əsil xoşbəxtlik sevgi ilə süslənir. Hətta iki gəncin bir-birinə olan sevgisinin etirafını dinləyənlər də məmnundurlar, alqışlayırlar bu sevgini: "Hamı əl çaldı, "Qorka, qorka" deyə qışqırdılar. Sevgililər bir-birinə sarıldılar". Ancaq görünür, təkcə sevməklə, ruhən bir-birinə bağlanmaqla iş bitmir. Həyatın qarşıya çıxaracağı bəd təsadüflərdən sevgini qoruya bilmək də əsas şərtdir. Viktorun dostu olaraq birinci şəxs bir neçə ildən sonra biləndə ki, bu sağlam özüllü ailə dağılıb, çox təəccüblənir.

Bundan sonra hadisələrin gedişini biz Viktorun söhbətlərindən və İrinanın etiraflarından öyrənirik. Viktor sevgisinə sadiq bir ər kimi İrinanın hər cür qayğısını çəkməyə hazırdır. Hətta baş verən həyat uçqununun özü də onun hədsiz qayğıkeşliyindən bəhrələnir. Viktor arvadından on yaş böyükdür. Ancaq gözəl qadınını maddi və mənəvi baxımdan təmin etmək üçün hər cür cəfaya hazırdır.

İrina ilə Viktorun yaşadıqları şəhərdə bir gecə oteldə qalmaları bu ailənin tar-mar olmasının başlanğıcına çevrilir. Viktor növbəti dəfə yaradıcılıq ezamiyyətində olanda İrina içkinin təsiri altında həmin otelə gedir. Buradakı ötəri tanışla, xidmətçi oğlanla gecə keçirir. Və beləliklə, yolunu azır. Viktor bunu çox tez başa düşür. Hətta İrina o qədər korlanır ki, bir otel quşuna çevrilir.

Viktorun dostu olaraq birinci şəxs İrinanı da tapıb onu görmək, dinləmək istəyir. İrina taleyinin həyatın dibinə enmiş yolları haqqında ona danışır. Və olub-keçənləri gizlətmir, olduğu kimi danışır. Hətta sözünün sonunda ailə dostu kimi birinci şəxsə Viktorun onu bağışlaya biləcəyi haqqında istəyini də bildirir. Bu, mümkün olacaqmı? Viktor onu bağışlaya bilərmi? Bunu demək mümkün deyil, ancaq birinci şəxs İrinadan ayrılarkən onun əlindən öpür. Müəllifin qeyd etdiyi kimi siqaret iyisi verən əlindən.

Bu kiçik epizod, deyəsən, xüsusi mənə daşıyır. Ailə dostu kimi birinci şəxs İrinanın öz faciəsini dərk etdiyinə inandığını təsdiq edir. Öz səhvini anlayan, faciəsini dərk edən insan mənən yenidən doğulmaq imkanına malikdir. Amma İrinanın bu etirafları öz ərinə etməyə gücü çatacaqmı? Viktor olub-keçənləri unuda biləcəkmi? Keçmiş arvadının səmimiyyətinə inanancaqmı? - Bunları gələcək göstərər.

Düşünmək olar ki, müəllif sağlam özüllü ailənin dağılmasında insanın zərərli vərdişlərinin də təsir edici gücdə olduğunu diqqətə çatdırmaq istəyir. Görünür, ailə həyatında ciddi tələblər də xüsusi əhəmiyyətə malikdir. İrina ərindən belə bir ciddiyyət görmədiyi üçün də hədsiz sərbəstliyə qapılır. Və bu da müəyyən mənada ailənin sarsılmasına şərait yaradır.

Böyük sevgi hər cür təqdirə layiqdir. Ancaq görünür, böyük sevgini qoruya bilmək üçün böyük fədakarlıq da gərəkdir. Mən çox təəssüf elədim Viktorla İrinanın sevgi faciəsinə... "Naməlum gözəl" hekayəsi İsaxanın yaradıcılığında ilkin müşahidəmə görə xüsusi yer tutur. Bu hekayədəki canlılıq, təbiilik oxucunu öz cazibəsində saxlayır. Mənə elə gəlir ki, İsaxan bu hekayədə həyatın bir parçasını olduğu kimi qoparıb yazı ilə təqdim edə bilmişdir. Sadəcə istedadının tələbatına uyğun olaraq həyatın bu parçasına özünün rənglərini əlavə edib. Zövqünə uyğun olaraq ona forma verib, don biçib. Beləliklə, əsərinin həyatın bir parçası olduğuna daha çox inandırıcılıq gətirib.

Ümumiyyətlə, İsaxanın hekayələrində həyatın özünü görmək olur. Sanki inanırsan ki, onun yazdığı əhvalatın hansısa hissəsinin iştirakçısı olmusan, hardasa görmüsən bu adamları (əsərin qəhrəmanlarını) bu və ya digər dərəcədə tanıyırsan, onlarla ünsiyyətdə olmusan.

Getdikcə daha çox inanıram ki, İsaxan yazdığı hekyələrdə təsvir olunan hadisələrin ya iştirakçısıdır, ya bu hadisələri yaxından müşahidə edib, ya da olmuş əhvalat kimi hardansa, kimdənsə eşidib, yaddaşına yığıb. Bu, əlbəttə, şərti qənaətdir. Müəllifin həyat həqiqətinə sadiq olduğunu, bir başa həyatla nəfəs aldığını təsdiq edən psixoloji qənaətdir. V.B.Bellinski deyirdi ki, bütün hallarda oxucu haqlıdır. Əgər belədirsə, onda mən də özümü haqlı hesab edirəm. Çünki "Naməlum gözəl"i oxuduqca sevdiyim bir rəssamın az qala bu hekayədə təsvir olunan, hadisələrlə üst-üstə düşən həyatı gözlərimin önünə gəldi. Həqiqətən həmin rəssamı yaxşı tanıyırdım. "Xalq rəssamı" fəxri adına layiq görüldü. Gəncliyində təsadüfən tanış olduğu bir avropalı gözəlin arxasınca ömrünün 60 ilindən sonra səfərə çıxdı. Və ömrünü də qürbətdə başa vurdu. Ad çəkmədim, ancaq bu naməlum görünən əhvalat göstərir ki, həyat ən təsirli hekayələri yazmaq üçün tükənməyən bir mənbədir. Qalır yalnız onu İsaxan kimi görmək, duymaq, əsərin qəhrəmanlarının yaşadığı hissləri öz canından keçirərək yazıya gətirmək.

Bir tələbə rəssam Moskvada təşkil olunan Ümumittifaq sərgisindən qayıdır; təsadüfən onun gözlədiyi təyyarə uçuş üçün gecikir və təsadüfən Parisə uçan təyyarə də səfər üçün gecikir. İki ayrı-ayrı təyyarənin sərnişini hava limanında tanış olur; avropalı sərnişin gözəl, cavan bir qadındır, bakılı sərnişin isə gənc oğlan, tələbədir. İsaxan iki ayrı-ayrı dünyanın insanını çox ustalıqla bir-birinə yaxınlaşdırır, onları tanış edir. Həqiqi təbii insan hissləri ilə bu müxtəlif dünyanın adamları taleyin onlara ayırdığı bircə gecədə qovuşa bilirlər. Demək, aradakı məsafə, dil, adət-ənənə fərqləri insanları birbirinə doğmalaşdıran hisslərin qarşısını ala bilmir. Yazıçı təlqin edir ki, istər Şərqli ol, istərsə də Qərbli; insan hisslərinin dili eynidir. Dünyanı bölmək istəyənlərə bundan artıq və üstün bir mesaj ola bilməz. Həm də demək, dünyanı tutmaq iddiasında olan fatehlər, "tülkü siyasilər" öz bölüşdürücü niyyətləri ilə insanları bir-birinə yadlaşdıra bilməzlər. Bəli, bu yeganə dil -insani hisslər dili, görünür, dünyanın sonuncu xilaskarı kimi son nəticədə qalib gələcək. Bu, yazıçının bəşəri həqiqətə inamıdır.

Bir günlük doğmalıq sona çatır. Təzəcə başlanmış hekayət elə bu bircə gecə ilə də qurtarır. Ancaq həyatda qurtaran bu hekayət düşüncədə, rəssamın mənəvi həyatında davam edir. Həmin bircə gecənin həqiqəti ilə rəssam bütün yaradıcılığı boyu zirvədəki yerini qoruyub saxlayan "Naməlum gözəl" əsərini yaradır. Və həmin əsərin bəxş etdiyi bitib tükənməyən intəhasız zövqün bəxş etdiyi hisslərlə rəssam öz həyatının tələbatını təmin etmiş olur əbədi yaradıcılıq qaynağı kimi, sehirli iksir kimi. Bu əsərdən aldığı enerjinin gücü ilə o, yaratmaqda davam edir. Nəhəyət, əsərini Parisin muzeyində sərgiyə təqdim edir. İndi həyatının ahıl çağında ona maddi vəsait də gərəkdir. Öz əsərinə fantastik qiymət qoyur, baxmayaraq ki, ehtiyac içərisində yaşayır; ona görə fantastik qiymət qoyur ki, onu kimsə naməlum gözəlindən ayıra bilməsin. Çünki uzaq gəncliyində gördüyü naməlum gözəl, həmin o bircə gecədə gördüyü gözəl Allahın yaratdığı donunda, yəni çılpaq olaraq həmişə gözlərinin qabağında idi. Hər dəfə həmin əsərə baxdığca Allahına sitayiş edirmiş kimi hisslər keçirir, qəlbindəki səssiz duyğu nəğmələrini oxuyurdu.

Əsər rəssamın qoyduğu qiymətlə alınır. Bəs onu kim alıb? Bir fransız kolleksioneri. O, gəncliyindən üzü bəri dəyərli rəsm əsərlərini toplamaq "xəstəliyinə yoluxub". Kolleksiyaçı xanım sanki həmən əsərdə öz həyatının bir parçasını görürdü. O, rəssamı tapmaq istəyirdi, inamlı axtarışlar aparır, məlum olur ki, bu rəssam elə onun gəncliyində tapdığı ideal obrazıdır; tapdığı və itirdiyi ideal obrazı. Axır ki, kolleksiyaçı xanım rəssamına məktub yazır və diplomatik missiyalar vasitəsi ilə ona göndərir.

*(Davamı var)*

***Əli Rza XƏLƏFLİ***